# Kiçikyaşlı məktəblilərin vətəndaşlıq tərbiyəsinin təşkil edilməsində məktəbin ailə ilə əməkdaşlığı

**Roza Rövşən qızı Mirzə**
*Bakı Qızlar Universiteti*
**E-mail:** roza-mirza@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** vətəndaşlıq, ailə tərbiyəsi, məktəb, valideyn, müəllim, vətənpərvərlik, əməkdaşlıq
**Ключевые слова:** гражданство, семейное воспитание, школа, учитель, патриотизм, сотрудничество
**Key words:** citizenship, family education, school, parent, teacher, patriotism, cooperation

Tərbiyə insan şəxsiyyətini formalaşdırmağın iki bünövrə daşının, iki nəhəng sütunun biri və birincisidir. Tərbiyənin əsas məqsədi əsl vətəndaş yetişdirməkdir. Müasir dövrün tələbinə uyğun fəal, yaradıcı təfəkkürə malik vətənpərvər şəxsiyyətlər formalaşdırılmalıdır. Ailədən başlayan ilkin tərbiyə sistemi öz istiqamətini düzgün almalıdır. Burada valideynlərin uşağa sevgisi, qayğısı, nəvazişi mühüm rol oynayır.

Valideyn kimi, necə tərbiyə edirsə, bir müddətdən sonra onun nəticəsini görür. Bu nəticəni tək özü yox, əhatəsində olan bütün insanlar, cəmiyyət görür. Valideynin düzgün tərbiyə etdiyi övladdan cəmiyyət də çox yararlanır. Amma düzgün tərbiyə olunmayan uşağın zərbəsi tək valideynlərinə yox, cəmiyyətə də dəyir. Valideyn öz məsuliyyət hissini dərindən dərk etməli övladının tərbiyəsi işinə məsuliyyətlə yanaşmalıdır. Ailə elə güclü amildir ki, onun şəxsiyyətin formalaşmasına çox böyük təsiri vardır. BMT-nin "Uşaq Hüquqları Konvensiyası", Azərbaycan Respublikası Konstitusiyası, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda valideynlərin roluna, hüquq və vəzifələrinə əsaslı yer verilməsi də bu zərurətdən irəli gəlir. Buna görə də uşaq şəxsiyyətinin formalaşmasının ilkin mənbəyi olan ailənin təsir imkanlarının intensivliyini gücləndirmək və uşağın tərbiyəsini ailədə hərtərəfli inkişaf etdirmək hazırda mühüm vəzifələrdən biri kimi qarşıda durur. Uşağa qayğı ilə, sevgi ilə yanaşmaq lazımdır. Bu münasibətlərdən doğan keyfiyyət uşağın yaxşı formalaşmasına gətirib çıxarır.

F.M. Dostoyevski yazırdı: "Xoşbəxt uşaqlığı olmayan kəs, mənəviyyatlı ola bilməz". Həqiqətən də kiçik yaşlarında yaşanılan istər yaxşı, istərsə də pis xatirələr insanın bütün ömrü boyu yaddaşında silinməz iz salır. Buna görə də uşağın yaddaşına yaxşı xatirələr yazmaq lazımdır.

Ailədə uşağa düzlük, doğruçuluq, əməksevərlik, vətənpərvərlik kimi müsbət keyfiyyətlərin aşılanmasının özülü qoyulur. Ailə bu işin ağırlığını, məsuliyyətini hər an hiss etməli və diqqət mərkəzində saxlamalıdır.

Kiçik yaşlarında uşaqlarda hər şeyi bilmək, hər şeylə maraqlanmaq qabiliyyəti inkişaf edir. Onlar ətraf aləmi, təbiəti dərk etməyə başlayırlar. Təbiət qoynuna uşaqları tez-tez səyahət etdirmək lazımdır. Təbiət uşağın nitqinə, təfəkkürünə, düşüncəsinə təsir edir. Təbiətin gözəlliyini, ecazkarlığını duyan uşaq ana yurdu sevməyə başlayır.

Azərbaycanın görkəmli alimi X. Məmmədov demişdir: "Uşaqlara vətəni sevməyi öyrətmək lazım deyil, siz vətəni tanıdın, özləri sevəcəklər".

Təbiəti, yurdu, Vətəni sevməklə yanaşı, xalqımızın milli adət-ənənələrini, qonaqsevərlik, xeyirxahlıq, böyüyə hörmət, kiçiyə qayğı, əməksevərlik və s. kimi sağlam, insani keyfiyyətlər aşılanmalıdır ki, bu sistemli, kompleks tərbiyə işinin məzmunu öz əksini müəyyən vaxtdan sonra reallıqda göstərsin.

Cəmiyyətimiz, böyüməkdə olan nəslin tərbiyəsinin aparıcı qüvvələri olan ailə, məktəb və ictimaiyyət qarşısında vəzifə-iradəsi möhkəm, əqidəsi saf, yüksək əxlaqi keyfiyyətə malik şəxsiyyətin formalaşdırılması məsələsini qoymuşdur.

Kiçikyaşlı məktəblilərin tərbiyəsində ailə ilə bərabər məktəbin də rolu böyükdür. Uşağın tərbiyəsində məktəbin ailə ilə qarşılıqlı, sıx əlaqəsi olur. Bu əlaqənin aşağıdakı formaları vardır:

1. a) Fərdi əlaqə formaları: a)valideynin məktəbə dəvət edilməsi və övladı haqqında məlumatın verilməsi: b) Sinif müəlliminin valideynlə dərsdən əvvəl və sonra söhbət etməsi; c) Müasir dövrümüzdə telefon əlaqəsi və ya sosial şəbəkələr vasitəsi ilə şəxsi əlaqə saxlama yolları; d) Kiçik yaşlı məktəblilərin valideynləri üçün müəllimin məsləhət saatları, yaxud "Açıq qapı" günlərinin keçirilməsi və s.

2. Qrup əlaqə formaları: a) Valideynlərlə məktəbdə şagirdlərin vətəndaşlıq tərbiyəsində düzgün istiqamətlənmiş işin təşkili; b) Tərbiyəvi-didaktik istiqamətdə görüləcək işlərdə fəal valideynlərin köməyindən yararlanmaq və s.

3. Kollektiv əlaqə formaları: a) Sinif-valideyn iclasları; b) Valideyn konfransları; c) pedaqoji və psixoloji lektoriyalar; d) Aktual olan məsələlər barəsində tərbiyəvi-didaktik məzmunlu mövzuların müzakirəsində valideynlərin iştirakını təşkil etmək və s.

Kiçik yaşlıların vətəndaşlıq tərbiyəsində məktəblə ailənin əməkdaşlığına xüsusi əhəmiyyət verir. Məktəbin valideynlərlə əlbir iş forması sistemli, ardıcıl, mütəşəkkil olarsa, nəticədə pedaqoji kollektivin bu istiqamətdə fəaliyyəti məqsədyönlü, səmərəli nəticə verir. Təəssüflər olsun ki, məktəbin ailə ilə əməkdaşlığı tələb olunan səviyyədə deyildir. Valideyn iclası, "Açıq qapı" günlərinin keçrilməsi, valideynin məktəbə dəvət olunması, sinif rəhbərinin şagirdinin evinə gedib onun yaşadığı şərait ilə tanış olması, ümumiyyətlə, valideynlə mütəmadi əlaqə saxlanılması tədris ili ərzində çox az olur. Lakin ailə ilə məktəbin mütəmadi əməkdaşlığı zəruri pedaqoji tələbdir. Bu işi icra edən məktəb kollektivi əsas fəaliyyət istiqamətlərdən biri kimi götürməlidirlər.

Məktəb rəhbərliyi və müəllimlərin valideynlərlə görüşü məqsədəuyğundur. Müəllimlər valideynləri öz fəaliyyəti, tələbləri ilə tanış edir və valideynlərin arzusunu, təklifini dinləyir. Müəllimlər valideynlərin imkan və maraqlarını nəzərə alaraq işi planlaşdırmağa çalışırlar.

Müəllimlər valideynlər üçün qrup halında məsləhətlər, praktiki məşğələlər keçirirlər. Hətta uşağın problemini müəllim tək çözə bilmir, bu işdə valideynin köməyinə böyük ehtiyac duyur. Məsələn, müəllim dərsi oxumaqda çətinlik çəkən şagirdlərin valideynlərini dərsə dəvət edir. Müəllim dərsi həmin uşaqların problemləri üzrə qurmağa çalışır. Bir neçə belə dərsdən sonra müəllim və valideyn uşaqların çətinliklərinin səbəbini aşkara çıxarmağa, onlara necə çıxış yollarının tapılmasına çalışırlar.

Məktəb psixoloqunun da valideynlərlə fərdi, qrup, kollektiv şəkildə görüşüb onlarla psixoloji söhbətlər aparıb, valideynləri pedaqoji maarifləndirməsi məqsədəuyğun hesab edilir.

Sinif müəlliminin ailələrə baş çəkməsi tərbiyə prosesinin hər bir ailədə düzgün formalaşmağına kömək edir. Ailə tərbiyəsində ortaya çıxan çatışmazlığı aradan qaldırmaq üçün müəllimin faydalı məsləhətlərindən valideyn yararlana bilir. Məktəbin ailə ilə fərdi, kollektiv, qrup əlaqə formasından fasiləsiz, pedaqoji qaydalara uyğun əməkdaşlığı kiçik yaşlıların tərbiyəsində aparıcı rol oynayır.

Kiçik yaşlı uşaqların təlim-tərbiyəsinin səmərəliliyini yüksəltmək, yeni iş metodlarını, tədris texnologiyasını aşkarlamaq, valideynlərin səyini artırmaq, peşə ustalığını təkmilləşdirmək və digər faydalı pedaqoji təsir baxımından onların elmi-metodik hazırlığına dair irəli sürülən tələblər durmadan artır.

Valideynlər özlərinin bacarıq və tələbkarlıq səriştəsini, fəaliyyətlərini peşəkarlıq qabiliyyətlərini elmi əsaslar üzrə qurmaqla, cəmiyyətə layiqli övladlar tərbiyə etmək mümkündür.

Cəmiyyət üçün əsl vətəndaş yetişdirməyin yolu vətənpərvərlik hissindən keçir. Vətəni sevmək, onun göz-bəbəyin kimi qorumağı hələ kiçik yaşlarından uşağa aşılamaq böyüdükcə bu məsuliyyəti hiss etdirmək lazımdır. Bunun üçün ailə, məktəb öz qüvvəsini səfərbər etməlidir. Ali baş komandanın qətiyyəti, müzəffər ordumuzun yenilməzliyi, igid oğullarımızın qəhrəmanlığı nəticəsində 44 günlük müharibə qələbəmizlə başa çatdı. Bu qələbə də müəllimlərin də, valideynlərin də rolu böyükdür. Onlar vətən üçün əsl övlad tərbiyə etmişdilər. Bütün müharibə iştirakçıları, hər biri ailə, məktəb tərbiyəsi almışlar. Düzgün, mütəşəkkil, əsl vətəndaş tərbiyəsinin bariz nümunəsi 44 günlük müharibədə igid Azərbaycan oğullarının göstərdiyi şücaətidir. Onların ruhu əsl azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş, ürəklərində Vətən sevgisi qala qurmuşdu. Düşmən tapdağı altında qalan torpaqlarımızı azad etmək onların gecə-gündüz müqəddəs amalı idi. Müharibə başlayan kimi Vətəni hər şeydən uca tutan igid oğullarımız əllərində üç rəngli Azərbaycan bayrağı, ürəklərində Vətənə olan sönməz məhəbbət hissi ilə döyüşə yollandılar. Ölümlə üzbəüz dayandılar, günlərlə ac-susuz, yuxusuz qaldılar. Amma yorulmadılar, əyilmədilər, qorxmadılar. Vətən uğrunda igidliklə canlarından keçdilər, ”Vətən sağ olsun” dedilər. Onların qəhrəmanlığından illər keçsə də, çox danışılacaq, çox yazılacaq. Nə qədər Vətəni qorumağı özünə şərəf bilən vətəndaş varsa, o Vətən basılmaz.

Azərbaycanın görkəmli şairi Musa Yaqub yazır:

Bəlkə də borcundan çıxmadım, Vətən
Ömür bahar deyil bir də qayıtsın.
Ölsəm də, qoynunda qoy, ölüm ki, mən
Çürüyüm bir ovuc torpağın artsın.

**Məqalənin aktuallığı.** Uşaq şəxsiyyətinin formalaşmasında ailənin və məktəbin rolu böyükdür. Uşaqların tərbiyəsində məktəblə ailənin düzgün, məqsədəuyğun əməkdaşlığın səmərəli nəticəsi danılmazdır.

**Məqalənin elmi yeniliyi.** Kiçikyaşlı məktəblilərin vətəndaşlıq tərbiyəsində məktəblə ailənin əlbir iş formalarının müasir dövrlə əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Təlim-tərbiyə işində məktəblə ailənin birgə işi danılmazdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə kiçikyaşlı məktəblilərin iradəsini tərbiyə etmək, onları düzgün istiqamətləndirməyin vacibliyi bir daha vurğulanır. Bu yaşda olan uşaqlarda müsbət keyfiyyətlərin aşılanmasında valideynin müəllimlərlə müntəzəm əlaqə saxlaması və pedaqoji biliklərə yiyələnməsinin əhəmiyyəti göstərilir ki, bu tövsiyələrdən də orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar geniş yararlana bilərlər.

## Ədəbiyyat

1. A. Həsənov, Ə. Ağayev. Pedaqogika. Bakı: Nasir, 2007.
2. Ə. Bədəlova. Təlim-tərbiyə. Bakı, 2015.